YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

13 mart 2026-cı il, cümə

№ 047 (7114)

Qiymət 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik!




Bax səh. 2

## İlham Əliyev: Təhlükəsizlik əsas amildir və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik

## Sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun




Bax səh. 4

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



Bax səh. 4

## “Şəhərsalma və memarlıqda dövlətçilik prinsipləri”

## Azərbaycan - Aİ münasibətləri mühüm inkişaf mərhələsində...

Bax səh. 3

## Rəqəmsal transformasiya və Azərbaycan

Bax səh. 5

## Bank Nəzarəti Strategiyası

### Azərbaycan banklarında risk əsaslı nəzarət sistemi təkmilləşdiriləcək

Bax səh. 5

## Günü 1,8 milyard dollarlıq müharibə...



Bax səh. 7

# Biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik!

## İlham Əliyev: Təhlükəsizlik əsas amildir və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik








## Sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun

Martın 12-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Əvvəlcə xatirə fotosu çəkdirildi.

XIII Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin tədbir iştirakçılarını salamladı, Forumda aparılan müzakirələrin xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq dedi: "Zati-aliləri, xanımlar və cənablar, sabahınız xeyir. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri olmaqdan şərəf hissi duyuram. XIII Qlobal Bakı Forumunda burada - Bakıda görüşmək bizdə məmnunluq hissi doğurur və mən hər birinizə bu önəmli tədbirdə iştirak etdiyinizə görə təşəkkürümü bildirirəm. Bu tədbir indi xüsusilə önəmlidir. Çünki uzun illər ərzində sanki belə də olmalı imiş kimi qəbul etdiyimiz beynəlxalq münasibətlər və çoxtərəflilik sisteminin quruluşu gərginlik altındadır və bəlkə də pozulub. Beləliklə, növbəti günlərdə bizim vəzifəmiz dünyanın hansı şəkildə ola biləcəyi və olmalı olduğunu yenidən təsəvvür etmək üçün sizin təcrübəniz və müdrikliyinizdən yararlanmaqdır. Bunun üçün nostalji hisslərlə keçmişə baxmalı deyil, daha yaxşı gələcək qurmaq üçün bələdçi rolunu oynayacaq prinsiplərə sadiqliyi nümayiş etdirməliyik. Bu prosesə başlamaq üçün Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə bir yerdə olmaqdan şərəf hissi duyuruq və o, çıxışında fikirlərini bizimlə bölüşəcək. Cənab Prezident, buyurun, söz Sizindir".

x x x

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

-Hörmətli xanımlar və cənablar, sabahınız xeyir. Bütün qonaqlarımızı salamlayır və forumun bütün iştirakçılarına xoş gəlmisiniz deyirəm. İlk növbədə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə, onun həmsədrləri xanım Vike-Freyberqaya və cənab Serageldinə, İdarə Heyətinin üzvlərinə, həmçinin Mərkəzin bütün kollektivinə bu illər ərzində nümayiş etdirdikləri yüksəksəviyyəli fəaliyyətə görə minnətdarlığımı bildirmək istərdim. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi geniş spektrli məsələləri əhatə edən və çox yüksək beynəlxalq nüfuza malik aparıcı beynəlxalq qurumlardan biridir.

Mərkəzin fəaliyyətini il ərzində diqqətlə izləyirəm, bir qlobal forumdan digərinə keçərkən görürəm ki, fəaliyyət sahəsi getdikcə genişlənir. Təmaslar son dərəcə fəaldır və dəyişən beynəlxalq vəziyyətə uyğun yeni yanaşmaların işlənib hazırlanmasına verilən töhfə həqiqətən böyük qiymətə layiqdir. Qlobal Bakı Forumuna gəldikdə isə bu, çox nüfuzlu beynəlxalq tədbirdir.

Deyərdim ki, qlobal miqyasda bu forum əsas beynəlxalq forumlarla eyni səviyyədədir: iştirakçıların - prezidentlərin, baş nazirlərin, parlament spikerlərinin, tanınmış ictimai fiqurların, diplomatların, işgüzar dairələrin və vətəndaş cəmiyyəti nümayəndələrinin təcrübəsi baxımından olduqca yüksək səviyyədədir. Həyatımızın müxtəlif sahələrini əhatə edənlər bir araya gələrək fikir mübadiləsi aparır və təcrübə paylaşırlar, qeyd etdiyim kimi, xalqların həyatını daha yaxşı və daha təhlükəsiz etmək üçün ideyalar irəli sürürlər.

Builki forumun gündəliyi çox genişdir. Forum bir çox məsələləri əhatə edir, lakin əminəm ki, müzakirələr zamanı xüsusi diqqət bölgəmizdəki və dünyadakı mövcud vəziyyətə yönələcək. Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik əsas amildir və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik.

Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub. Çünki mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünü müdafiə hüququ çərçivəsində həyata keçirdik.

Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi. Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu mənfi təcrübə olmuşdur.

Daha sonra 2020-ci ilin 44 günlük Vətən Müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.

Üçüncü təcrübə isə sülh təcrübəsidir - sülhə necə nail olmaq olar. Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur.

Zənnimcə, dünyada hazırda baş verənlər - yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturuna təhdid təşkil edir. Bu, həmçinin beynəlxalq hüquqa təhdiddir. Beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə və beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur.

İşğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız - hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir. Mən dəfələrlə demişəm ki, biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl paraflandı və birgə bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur.

Biz Ermənistana müxtəlif istiqamətlərdən malların daşınmasına qoyulmuş bütün məhdudiyyətləri aradan qaldırdıq. Hətta Ermənistanla ticarəti bərpa etmişik. Onlar üçün həyati əhəmiyyət kəsb edən neft məhsullarının ixracına başladıq və bununla da göstərdik ki, biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik. Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir. İkinci Qarabağ Müharibəsi və daha sonra anti-terror əməliyyatı zamanı bizi ittiham edənlər ya uzaqgörən deyildilər, ya da qərəzli idilər. Çünki bizim gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğun idi, biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk.

Bəzən bunu etmək zəruridir, xüsusilə də əmin olduğunuz halda ki, haqlısınız. O zaman sizi əngəlləməyə çalışanları, maraqlarınıza xələl gətirmək istəyənləri nəzərə almamalısınız. Həmçinin hesab edirəm ki, bu, müharibə aparanlarla paylaşa biləcəyimiz daha bir təcrübədir.

Biz Ermənistanla sülhə nail olduq, - biz deyərkən Azərbaycanı nəzərdə tuturam, - israr etdik ki, bunu vasitəçilərsiz təmin edək. Özlərini Minsk qrupu adlandıran vasitəçilərin 28 illik fəaliyyəti bir fəlakət idi. Həmsədrlərin məqsədi münaqişəni dondurmaq, onu əbədiləşdirmək və hər iki ölkəyə qarşı təzyiq aləti kimi istifadə etmək idi. Biz qərara gəldik ki, bu dırnaqarası vasitəçilikdən qurtulmalıyıq və ikitərəfli formatda - heç bir üçüncü tərəf olmadan fəaliyyətə başlayan kimi sülhə nail olduq. Beləliklə, bu bir təcrübədir və bu, sadəcə nəzəriyyə deyil, bu, bizim yaşadığımız, indi isə şahid olduğumuz bir reallıqdır. Hesab edirəm ki, mövcud münaqişələrin həlli istiqamətində çalışarkən bu məsələ mütləq nəzərə alınacaq.

Xüsusilə indi paylaşa biləcəyimiz digər vacib bir təcrübə enerji təhlükəsizliyidir, hansı ki, hazırda müəyyən dərəcədə pozucu təsir göstərir. Biz görürük ki, neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırıla bilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir.

Bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Azərbaycan bütün enerji seqmentlərinin - neft, qaz, neft məhsulları, neft-kimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur. Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı biz ixracımızı, xüsusilə təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırırıq. Keçən il - düz bir il əvvəl görüşdüyümüz zaman bizdən qaz alan ölkələrin sayı 12 idi. Bir il ərzində bu göstərici 16-ya yüksəldi və onların hamısı Azərbaycandan qazı boru kəmərləri vasitəsilə alır. Beləliklə, boru kəmərləri vasitəsilə təbii qaz ixracatçısı kimi, ölkələrin coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazara etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək.

Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır. Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır.

İndi isə biz mövcud dəhlizlərin yükaşırma qabiliyyətinin artırılmasına əlavə vəsait yatırırıq, çünki Azərbaycan ərazisindən istifadəyə tələbat artır. Biz bir çox ölkələr, həm Azərbaycanın şərqində, həm də qərbində yerləşən ölkələrin mühüm tranzit ehtiyaclarını təmin edirik. Hazırda isə Ermənistanla sülh edildikdən sonra Orta Dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək. Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini - əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu, bizim üçün, yəni ümumilikdə hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq.

Bu yeni fürsətdən həqiqətən yararlanmaq olar, çünki biz Azərbaycanın iki hissəsini nəqliyyat infrastrukturu ilə birləşdirəcəyik. Artıq qeyd etdiyim kimi, yeni istiqamət yaradacağıq, bu isə bir çox ölkə üçün faydalı olacaq. Vaxtınızı çox almamaq üçün çıxışımı burada yekunlaşdıracağam, yalnız təcrübəmizin olduğu məsələlərə və bu gün beynəlxalq gündəmin birnömrəli mövzularına toxunmaq istədim.

Son olaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə əməkdaşlığımıza qayıdaraq, bir daha onları təbrik etmək və COP29-un uğurlu keçirilməsinə verdikləri töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ondan çox panel müzakirəsi təşkil etmiş, çoxsaylı müzakirələrdə iştirak etmiş və COP29-un uğuruna fəal töhfə vermişdir.

Bu il biz daha bir vacib qlobal beynəlxalq tədbir - Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini və bütün kollektivini Forumda fəal iştiraka dəvət edirəm. Ümid edirəm ki, bir neçə aydan sonra Bakıda sizlərlə görüşüb dünyada sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi kimi ortaq məqsədimizə dair müzakirələrimizi davam etdirəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

x x x

Daha sonra çıxış edən Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa Forumun dünyanın qlobal çağırışları ilə bağlı fikir mübadiləsi aparılmasına geniş imkan yaratdığını qeyd edərək dedi: "İstərdim, mən də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasını salamlama fikirlərinə qatılım və Sizin burada olmağınızdan məmnunluğumu ifadə edim. Eyni zamanda, biz Azərbaycan Respublikasına təşəkkürümüzü bildiririk ki, artıq 13-cü dəfədir bu Foruma ev sahibliyi edir və Prezident İlham Əliyev də çıxışında bu tədbirin əhəmiyyətini qeyd etdi. Xatırlayıram ki, bir çox il əvvəl biz bu təşəbbüsə başlayanda ideya ilə Prezident qarşısında çıxış etdik və Prezident Nizami Gəncəvinin doğum günü ilə əlaqədar tədbirə dəvət etdi və hər il bu tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd etdi, dedi ki, Azərbaycan bu tədbirə ev sahibliyi etməlidir. Cənab Prezident bizim o vaxt keçirdiyimiz tədbirdən daha böyük tədbirlərin Azərbaycanda keçirilməsinin təşəbbüsünü irəli sürdü və hazırda bu gün miqyas doğrudan da böyükdür".

# Prezident İlham Əliyev Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü ilə görüşüb



Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin Jelka Tsviyanoviçlə görüşləri məmnunluqla xatırlandı, ölkələrimiz arasında münasibətlərin genişlənməsi qeyd edildi, müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu.

Jelka Tsviyanoviç ənənəvi olaraq keçirilən Qlobal Bakı Forumunda bir neçə dəfə iştirak etdiyini bildirdi.

Görüşdə XIII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin yüksək səviyyədə təşkil olunduğu qeyd edildi. Forumda həmişə olduğu kimi bu dəfə də, xüsusilə dünyada hazırkı vəziyyət fonunda çox aktual qlobal məsələlərin müzakirə edildiyi vurğulandı.

# Azərbaycan - Aİ münasibətləri mühüm inkişaf mərhələsində...

## Təşkilat Bakı ilə əlaqələri genişləndirməkdə və şaxələndirməkdə maraqlıdır

Azərbaycanın xarici siyasət kursu çoxvektorluğu ilə seçilir və qarşılıqlı əməkdaşlığa, milli maraqlara əsaslanır. Ölkəmiz bütün beynəlxalq təşkilatlarla əlaqələrin inkişafında maraqlıdır. Hazırkı həssas məqamda Azərbaycan mühüm bir coğrafiyada münbit iqtisadi şərait formalaşdırmaqla yanaşı, həm də təhlükəsizlik arxitekturasını yenidən qurur. Bakı siyasi dialoqların daha da irəliyə aparılmasını, sülh və danışıqlar sistemini, terrorizmə qarşı aktiv mübarizəni, eləcə də, beynəlxalq hüququn təsbitini daim dəstəkləyir. Diqqət çəkən məqam odur ki, son dövrlərdə bəzi təşkilatlar və dövlətlər də artıq ənənəvi xəttini rasional yanaşma ilə dəyişir. Məsələn, post-müharibə dövründə bəzi məqamlarda qeyri-adekvat münasibət sərgiləyən Aİ və onun bəzi strukturları artıq Bakının bölgənin lideri statusunu təsdiqləyir. Həmin strukturlar Azərbaycana münasibətdə fərqli davranış ortaya qoyurlar.

**Yeni mərhələ: qarşılıqlı dialoq genişləndirilir və institusionallaşdırılır**

Aİ Şurasının Prezidenti Antonio Koştanın Bakı səfəri də məhz bu müsbət reallıqların açıq ifadəsi kimi yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevlə Aİ Şurasının Prezidenti Antonio Koştanın tarixi birgə mətbuat bəyanatı təşkilat ilə ölkəmiz arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunun göstəricisidir. Qeyd edək ki, bu müsbət tendensiyanın təməli Azərbaycan və Aİ liderləri arasında 2025-ci ilin may ayında Tiranada və oktyabr ayında Kopenhagendə keçirilmiş konstruktiv görüşlər zamanı qoyulub. Ötən il ərzində Azərbaycan və Aİ rəsmilərinin qarşılıqlı səfərləri, təhlükəsizliklə bağlı müzakirələr, dialoq təşkilat ilə ölkəmiz arasında münasibətlərin inkişafına öz töhfəsini verib. Bu müsbət dinamika əməkdaşlığın yeni səviyyəyə yüksəlməsi üçün əlverişli şərait yaradıb. Vurğulanmalıdır ki, Azərbaycan dövləti mühüm toplantılarda, fundamental enerji dialoqlarında, yeni nizamın formalaşdırılması yönündə müzakirələrdə əsas dövlətlərdən biri kimi qəbul olunur. Bunun da əsas səbəblərindən biri qalib Azərbaycanın xarici siyasət fəlsəfəsinin dünyanın qlobal əhəmiyyətə malik prinsipləri üzərində fokuslanmasındadır. Başqa sözlə, Azərbaycan bütün dünyaya bərabərhüquqlu münasibətlər, beynəlxalq hüquqa hörmət və onun təmin edilməsi, ədalət və qarşılıqlı hörmət prinsipləri üzərində bərqərar olan davranış kodekstləri təlqin edir. Məhz bu dəyərlərə əsaslanan siyasət nəticəsində Azərbaycan həm regional, həm də beynəlxalq səviyyədə tanınan, hörmət edilən və nüfuz qazanan dövlət statusu əldə edib. Azərbaycan Prezidenti ilə Aİ Şurasının Prezidentinin mətbuata bəyanatında da Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığının strateji əhəmiyyəti vurğulanıb, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqlik ifadə olunub. Qeyd edilib ki, bu əməkdaşlıq hər iki tərəfin ortaq maraqlarını əks etdirir, bütün Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin, daşımaların və davamlı inkişafın təşviqinə töhfə verir.

**Münasibətlərdə hüquqi əsas: BMT Nizamnaməsi, dövlətlərin suverenliyinə hörmət...**

Dövlət başçımız ilə Aİ Şurası Prezidentinin birgə mətbuat bəyanatının əsas mahiyyəti Azərbaycan-Aİ münasibətlərinin yeni mərhələsini, strateji tərəfdaşlıq xarakterini yüksək səviyyədə təsdiqlənməsidir. Sənəd Azərbaycanla Aİ arasında münasibətlərin birgə maraqları əks etdirən və qarşılıqlı hörmət, bərabərlik və ortaq fayda prinsiplərinə əsaslanan strateji əməkdaşlıq olduğunu açıqlayır. Birgə bəyanatda münasibətlərin BMT Nizamnaməsinə, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyü də daxil olmaqla, beynəlxalq hüquqa tam hörmətlə yanaşılmaqla qarşılıqlı hörmət, bərabərlik və ortaq fayda əsasında qurulduğunu bir daha təsdiq edilib. Bu isə olduqca vacib bir məqamdır. Təəssüfləndirici hal idi ki, Aİ-nin bəzi strukturları ölkəmizə qarşı, suverenliyimizin bərpasına qarşı qeyri-hüquqi münasibət sərgiləyir, bəzən qətnamələr qəbul etməklə, bəzən isə iddialar irəli sürməklə ikitərəfli dialoqa kölgə salırdılar. Bəaynatda bu məqamın vurğulanması məhz bu kimi məqamların aradan qaldırılmasını özündə əks etdirir.

Paralel olaraq münasibətlərin daha da inkişaf etdirilməsi üçün möhkəm hüquqi çərçivə yaradılması zərurəti açıq şəkildə özünü ortaya qoyur - bu, mətbuata birgə bəyanatda da qeyd olunur. Bəlli olduğu kimi, Bakı dünyanın aparıcı güc və iqtisadi mərkəzləri ilə hərtərəfli strateji əlaqələr qurmaqda maraqlıdır. Biz dünyanın ən böyük iqtisadiyyatlarına malik ölkələrlə analoji münasibətlər formalaşdırmışıq. Birgə bəyanatda da Aİ-Azərbaycan münasibətlərinin inkişafı hədəf kimi göstərilir - vurğulanır ki, yeni əhatəli ikitərəfli saziş üzrə danışıqların tez bir zamanda yekunlaşdırılmasına sadiqliklər ifadə olunub. Tərəflər yenilənmiş Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetlərinin qəbul edilməsinin və bütün sahələrdə ikitərəfli gündəliyi daha da irəli aparmaq üçün Azərbaycan-Aİ Əməkdaşlıq Şurası da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam istifadənin vacibliyini qeyd ediblər.

**Sülh və inkişaf: Bakının təşəbbüsləri yenidən təsdiq olunur...**

Bakı yeni nizamın təhlükəsizlik konturlarını müəyyənləşdirən sabitləşdirici faktordur. 2020-ci ildə Cənubi Qafqazda yeni reallıqlar formalaşdıran Azərbaycan bölgənin siyasi xarakterini dəyişdi - regionumuz artıq əməkdaşlıq platforması kimi izlənir və qəbul olunur. Qalib ölkə olmasına baxmayaraq Azərbaycanın irəli sürdüyü sülh təşəbbüslərinin Cənubi Qafqazın həm siyasi, həm də iqtisadi gələcəyi üçün yeni strateji xətt müəyyənləşdirməsi vacib amildir. Ötən ilin yayında Vaşinqtonda baş tutan Sammit məhz bu reallıqların uğurlu nəticəsi kimi qəbul edilir. Birgə bəyanatda da bu məsələyə xüsusi yanaşma sərgilənir - belə ki, sənəddə Vaşinqton Sammiti, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi alqışlanır, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və bərpa işləri vurğulanır. Eləcə də, Aİ Şurası Prezidenti bəyanatda iki ölkənin ikitərəfli dialoq vasitəsilə regionda davamlı sülhə nail olmaq istiqamətində səylərinin Aİ tərəfindən tam dəstəkləndiyini bir daha təsdiqləyir. Bu isə, Azərbaycanın apardığı sülh siyasəti və yaratdığı yeni reallıqların növbəti təsdiqidir.

**Aİ - Azərbaycan münasibətlərində təhlükəsizlik ölçüsü: yeni əməkdaşlıq mərhələsinə doğru**

Bəyanatda həmçinin Azərbaycan ilə Aİ-nin müdafiə və təhlükəsizlik üzrə də əməkdaşlığın genişləndirilməsi niyyəti ifadə edilir. Prezidentlər mütəşəkkil cinayətkarlıq, terrorçuluq, ekstremizm, silah və narkotiklərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, insan alveri və qeyri-düzgün miqrasiya kimi ortaya çıxan təhdidlərin qarşısını almaq məqsədilə müdafiə və təhlükəsizlik sahələrində daha sıx əməkdaşlığın faydasını vurğulayıblar.



Qeyd olunmalıdır ki, qlobal təhlükəsizlik mühitinin sürətlə dəyişdiyi bir dövrdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin yeni məzmun qazanması xüsusi əhəmiyyət daşıyır. Göründüyü kimi, tərəfdaşlıq artıq tədricən müdafiə və təhlükəsizlik sahələrinə doğru yol alır - müasir çağırışlar, yeni regional münaqişələr, kibertəhlükələr və transmilli risklər tərəflər arasında daha sıx koordinasiyanı zəruri edir. Bu baxımdan Azərbaycan ilə Avropa İttifaqı arasında təhlükəsizlik dialoqunun genişlənməsi həm regional sabitliyin möhkəmləndirilməsinə, həm də Avropa ilə Cənubi Qafqaz arasında etibarlı tərəfdaşlıq mühitinin formalaşmasına xidmət edəcək. Bu isə öz növbəsində enerji infrastrukturunun, enerji dialoqunun təhlükəsizliyinin təminatı deməkdir. Aİ ilə Azərbaycan arasında təhlükəsizlik sahəsində institusional dialoqun genişləndirilməsi, təcrübə mübadiləsi və birgə mexanizmlərin yaradılması gündəmdə duran əsas istiqamətlər kimi ön plana çıxır. Vurğulandığı kimi, perspektiv baxımından tərəflər arasında kibertəhlükəsizlik, sərhəd təhlükəsizliyi, hibrid təhdidlərə qarşı mübarizə və strateji kommunikasiya kimi sahələrdə əməkdaşlığın dərinləşdirilməsi mühüm əhəmiyyət kəsb edəcək. Bu həm də qarşılıqlı etimadın daha da möhkəmlənməsinə şərait yaradacaq.

**Azərbaycanın regional rolu...**

Keçirilən görüşlər, əldə olunan razılaşmalar, pesrpektiv əməkdaşlıqlar Aİ ilə Azərbaycan arasında yeni bir gündəm formalaşdırır - təsadüfi deyil ki, Aİ rəhbəri bildirir ki, "Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir". Bəli, Bakı apardığı siyasi kursla qlobal təhlükəsizliyə töhfə verir, sülh və sabitliyin inkişafına dəstək göstərir, kataklizmlərin aradan qalxmasında aparıcı vasitəçi kimi çıxış edir. Beləliklə, Azərbaycanın beynəlxalq siyasətdə qazandığı mövqenin təsadüfi olmadığı bütün konturları ilə üzə çıxır və Aİ tərəfindən də təsdiqlənir. Bu, sistemli və strateji əsasları olan siyasətin nəticəsidir. Çünki Azərbaycan özünün sülh və inkişaf strategiyasını yalnız Cənubi Qafqazla məhdudlaşdırmır - uzun illərdir ki, beynəlxalq səviyyədə sülh və əməkdaşlıq ideyalarının təşviqinə çalışır. Bu ölkəmizin praqmatik və prinsipial, ardıcıl və qətiyyətli, davamlı və qarşılıqlı hörmətə əsaslanan siyasətidir.

**P.İSMAYILOV**



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın birgə mətbuat bəyanatı

1. 2026-cı il martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Azərbaycan Respublikasında, Bakıda görüşmüşlər.

2. Prezidentlər Azərbaycan-Avropa İttifaqı (Aİ) tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayaraq, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqliklərini ifadə ediblər. Bu əməkdaşlıq hər iki tərəfin ortaq maraqlarını əks etdirir, bütün Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin, daşımaların və davamlı inkişafın təşviqinə töhfə verir.

3. Onlar Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı münasibətlərin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyü də daxil olmaqla, beynəlxalq hüquqa tam hörmətlə yanaşılmaqla qarşılıqlı hörmət, bərabərlik və ortaq fayda əsasında qurulduğunu bir daha təsdiq ediblər.

4. Prezidentlər münasibətlərin daha da inkişaf etdirilməsi üçün möhkəm hüquqi çərçivə yaradacaq yeni əhatəli ikitərəfli saziş üzrə danışıqların tez bir zamanda yekunlaşdırılmasına sadiqliklərini bir daha vurğulayıblar. Onlar, həmçinin yenilənmiş Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetlərinin qəbul edilməsinin və bütün sahələrdə ikitərəfli gündəliyi daha da irəli aparmaq üçün Azərbaycan-Aİ Əməkdaşlıq Şurası da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam istifadənin vacibliyini qeyd ediblər.

5. Prezidentlər ayırıcı xətlərdən azad, dinc, sabit, qarşılıqlı əlaqəli və inkişaf edən Cənubi Qafqaz kimi ortaq strateji məqsədi bir daha təsdiqləyərək, regionda baş verən son müsbət hadisələri, xüsusilə də Azərbaycan-Ermənistan sülh prosesindəki tarixi irəliləyişi alqışlayıblar. Onlar 2025-ci il 8 avqust tarixli Vaşinqton Zirvə Görüşünün nəticələrini və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan sonrakı addımları yüksək qiymətləndiriblər. Avropa İttifaqı Şurasının Prezidenti iki ölkənin ikitərəfli dialoq vasitəsilə regionda davamlı sülhə nail olmaq istiqamətində səylərini Aİ-nin tam dəstəklədiyini bir daha təsdiqləyib.

6. Prezidentlər Azərbaycanın münaqişədən sonrakı dövrdə Qarabağ və Şərqi Zəngəzur bölgələrində genişmiqyaslı yenidənqurma və inkişaf səylərini vurğulayıblar. Çətinliklərin, xüsusilə də mina ilə çirklənmənin miqyasını qeyd edərək, onlar Avropa İttifaqının humanitar minatəmizləmə sahəsində aparıcı beynəlxalq donor olduğunu vurğulayıb, beynəlxalq dəstəyin artırılmasına çağırış ediblər.

7. Prezidentlər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in həyata keçirilməsinin ticarət, daşımalar, sərmayə, iqtisadi dayanıqlılıq və təmiz enerji daxil olmaqla, müvafiq prioritet sahələrdə Azərbaycan-Aİ əməkdaşlığını genişləndirmək üçün imkanlar yaratdığını qeyd ediblər.

8. Prezidentlər Azərbaycanın regional daşımalarda, xüsusilə də Orta Dəhliz vasitəsilə Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında nəqliyyat, ticarət, enerji və rəqəmsallaşma sahələrində əlaqələrin gücləndirilməsində oynadığı aparıcı rolu vurğulayıblar. Avropa İttifaqı "Qlobal Qapı" çərçivəsində daşımalar, digər müvafiq mexanizmlər, o cümlədən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında dəmir yolunun müasirləşdirilməsinə dəstək, həmçinin TRIPP-in icrası üzrə davam edən səylərlə bağlı Azərbaycanla əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyib. Onlar "Qlobal Qapı" təşəbbüsü çərçivəsində Azərbaycan-Aİ iqtisadi əməkdaşlığını və sərmayələrini gücləndirmək üçün İqtisadi Əməkdaşlıq üzrə Yüksəksəviyyəli İşçi Qrupunun yaradılmasını alqışlayıblar.

9. Prezidentlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq, Avropanın enerji təchizatının şaxələndirilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu etiraf ediblər və 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun davamlı icrasına sadiqliklərini bildiriblər. Onlar Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət Şurasının əhəmiyyətini, külək və Günəş enerjisi də daxil olmaqla, bərpaolunan enerji mənbələri sahəsində enerji əməkdaşlığının genişləndirilməsi potensialını, həmçinin Qara dəniz sualtı kabeli layihəsi kimi qarşılıqlı elektrik enerjisi bağlantısı təşəbbüslərini qeyd ediblər.

10. Prezidentlər 2024-cü ilin noyabr ayında Azərbaycan Respublikasının sədrliyi ilə Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasının (COP29) uğurlu nəticələrini alqışlayaraq, iqlim dəyişmələri və ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlığı möhkəmləndirməyə hazır olduqlarını bir daha təsdiqləyiblər.

11. Prezidentlər 2026-cı ilin may ayında keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına Azərbaycanın ev sahibliyi etməsini davamlı şəhərsalma və dayanıqlı şəhər inkişafı üzrə qlobal səylərə əhəmiyyətli töhfə kimi alqışlayıblar və bu Forumdan müvafiq sahələrdə Azərbaycan-Aİ əməkdaşlığını dərinləşdirmək üçün istifadə etməyə hazır olduqlarını bildiriblər.

12. Prezidentlər mütəşəkkil cinayətkarlıq, terrorçuluq, ekstremizm, silah və narkotiklərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, insan alveri və qeyri-düzgün miqrasiya kimi ortaya çıxan təhdidlərin qarşısını almaq məqsədilə müdafiə və təhlükəsizlik sahələrində daha sıx əməkdaşlığın faydasını vurğulayıblar.

13. Prezidentlər rəqəmsal transformasiya və innovasiya sahələrində əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd ediblər. Onlar süni intellekt və inkişaf etməkdə olan digər texnologiyaların artan əhəmiyyətini etiraf ediblər, innovasiyanı, iqtisadi dayanıqlılığı və inkişafı gücləndirmək, həmçinin davamlı və artıma yönəlmiş rəqəmsal ekosistemləri təşviq etmək məqsədilə bu sahədə əməkdaşlığı gücləndirməyə hazır olduqlarını bildiriblər.

14. Prezidentlər səfərlərin artırılması da daxil olmaqla, insanlar arasında təmasların vacibliyini bir daha təsdiq ediblər. Onlar qarşılıqlı səyahətləri daha da asanlaşdırmaq məqsədilə Viza Sadələşdirilməsi Sazişinin davamlı icrasını alqışlayıblar, təhsil, mədəniyyət, gənclər və tədqiqat sahələrində əməkdaşlığın gücləndirilməsinə sadiqliklərini bildiriblər.

15. Liderlər İranda və Ukraynada baş verən son hadisələr də daxil olmaqla, əsas cari geosiyasi məsələləri müzakirə ediblər.



# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib







Martın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.

İclasın müzakirəsinə YAP-ın 2025-ci il üzrə maliyyə hesabatı təqdim olunub.

Auditorlar Palatasının üzvü Elza Süleymanova çıxış edərək maliyyə hesabatının mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq mükəmməl səviyyədə hazırlandığını, partiyanın hesabat dövrü üçün maliyyə vəziyyətini və maliyyə fəaliyyətinin nəticələrini tam əks etdirdiyini vurğulayıb.

Sonra 2025-ci il üzrə maliyyə hesabatı İdarə Heyətinin üzvləri tərəfindən təsdiq edilib.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılaraq müvafiq qərarlar qəbul olunub.

Yekunda YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov mütləq suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş Azərbaycanın "Konstitusiya və Suverenlik İli" olan 2025-ci ildə mühüm uğurlara imza atmaqla milli gücünü və beynəlxalq nüfuzunu daha da artırdığını vurğulayıb. O, qarşıda duran hədəflərə çatmaq üçün Yeni Azərbaycan Partiyasının da üzərinə böyük məsuliyyətin düşdüyünü bildirərək bu kontekstdə partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin mütəşəkkil qaydada yerinə yetirilməsinin önəmini qeyd edib.

Ölkəmizin "Şəhərsalma və Memarlıq İli"ndə də ardıcıl nailiyyətlər qazanacağına əminliyini ifadə edən YAP Sədrinin müavini iclas iştirakçılarını qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edərək onlara möhkəm cansağlığı və fəaliyyətlərində uğurlar arzulayıb.

# "Şəhərsalma və memarlıqda dövlətçilik prinsipləri"









Martın 12-də "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Şəhərsalma və memarlıqda dövlətçilik prinsipləri" mövzusunda tədbir keçirilib.

Əvvəlcə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin inzibati binasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq önünə gül dəstələri düzülüb.

Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vüsal Aslanov çıxış edərək bildirib ki, müasir şəhərin inkişafı yalnız yeni binaların tikilməsi ilə ölçülmür: "Şəhərin necə planlaşdırılması, nəqliyyat sisteminin necə qurulması və insanların gündəlik həyatının necə təşkil olunması bu inkişafın əsas göstəricilərindəndir. Bu baxımdan, şəhər nəqliyyatı, xüsusilə də metropoliten sistemi şəhərsalmanın ən vacib elementlərindən biridir. Metro təkcə sərnişin daşıyan nəqliyyat vasitəsi deyil. O, şəhərin müxtəlif hissələrini bir-biri ilə birləşdirən, şəhərin inkişaf istiqamətlərini formalaşdıran mühüm infrastrukturdur".

Vüsal Aslanov qeyd edib ki, Bakı Metropoliteni hər gün yüz minlərlə sərnişinə xidmət göstərərək paytaxtın sosial və iqtisadi həyatının fasiləsizliyini təmin edir: "Eyni zamanda, Bakı metrosu paytaxtın memarlıq mühitinin də vacib hissəsidir. Bir çox stansiyalarımız milli memarlıq üslubunu və müasir həlləri birləşdirərək şəhərin simasına xüsusi rəng qatır. Bu da onu göstərir ki, metro yalnız nəqliyyat infrastrukturu deyil, həm də memarlıq və mədəni mühitin mühüm elementidir".

Bakı metrosunun inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna rolunun olduğunu vurğulayan V.Aslanov əlavə edib ki, Ulu Öndər paytaxtın gələcək inkişafını nəzərə alaraq metropolitenin genişləndirilməsini strateji məsələ kimi qiymətləndirirdi: "Təsadüfi deyil ki, Ulu Öndər Bakı Metropolitenini Azərbaycan xalqının milli sərvəti adlandırırdı. Onun dövlətçilik yanaşması bu gün də ölkəmizdə həyata keçirilən böyük infrastruktur layihələrinin əsasını təşkil edir. Bu strateji xətt hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının diqqəti və dəstəyi nəticəsində Bakı Metropolitenində geniş modernləşmə işləri həyata keçirilir, yeni stansiyalar istifadəyə verilir, vaqon parkı yenilənir və infrastruktur müasirləşdirilir. Metro sisteminin inkişafı paytaxtın şəhərsalma siyasətinin əsas istiqamətlərindən biri olaraq daim diqqət mərkəzində saxlanılır. Paytaxtın nəqliyyat sistemində ən mühüm məsələlərdən biri hesab olunan "Yaşıl" və "Qırmızı" xətlərin ayrılması istiqamətində işlərə başlanılıb. Bu layihə metronun daşıma imkanlarının əhəmiyyətli dərəcədə artırılmasını, eləcə də sərnişinlərə dayanıqlı, komfortlu xidmət göstərilməsini təmin edəcək. Qarşıdakı 5 il ərzində metro sisteminin genişləndirilməsi də nəzərdə tutulur. Dövlət proqramına uyğun olaraq 10 yeni metro stansiyasının tikintisi, həmçinin hər bir xətt üzrə ayrıca xidmət göstərəcək müasir depoların yaradılması və 300 ədəd yeni vaqon parkının alınması planlaşdırılır. Eyni zamanda, şəhər nəqliyyatının inkişafı yalnız metro ilə məhdudlaşmır. Yaxın gələcəkdə Bakı küçələrində müasir tramvayların hərəkətə başlaması da nəzərdə tutulur. Bu layihə şəhərin nəqliyyat imkanlarını genişləndirməklə yanaşı, paytaxtımızın memarlıq və şəhər mühitinə də xüsusi gözəllik qatacaq. Bütün bunlar Bakı şəhərinin gələcək urban inkişafı üçün mühüm əhəmiyyət daşıyır".



Vüsal Aslanov çıxışının sonunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni qoşulan Metropoliten əməkdaşlarını təbrik edib, onların dövlətçilik prinsiplərinə sadiq fəaliyyət göstərəcəklərinə əminliyini bildirib.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, müasir dünyada şəhərsalma siyasəti ölkələrin inkişaf strategiyasının önəmli komponentlərindən birini təşkil edir. Onun sözlərinə görə, qlobal urbanizasiya prosesi, sürətli texnoloji tərəqqi və günümüzün ekoloji çağırışları bu sahədə yeni yanaşmaların meydana çıxmasını şərtləndirir: "Ənənə ilə müasirliyin vəhdətini yaradaraq uğurlu şəhərsalma nümunəsi ortaya qoyan Azərbaycanda bu sahədə həyata keçirilən tədbirlər, o cümlədən genişmiqyaslı quruculuq işləri davamlı sosial-iqtisadi inkişaf xüsusunda mühüm əhəmiyyət daşıyır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin istər SSRİ dövründə, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zaman şəhərsalma siyasəti milli-strateji prioritetlərdən biri kimi müəyyənləşdirilərək respublikanın bütün bölgələrində olduğu kimi, paytaxt Bakıda da dövrün çağırışlarına uyğun məqsədyönlü tədbirlər həyata keçirilmişdir ki, bu kontekstdə Bakı Metropoliteni şəbəkəsinin genişləndirilməsi də ayrıca qeyd edilməlidir. Heydər Əliyev siyasətini bütün istiqamətlərdə müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlər isə paytaxt Bakının modernləşməsinə və regionların sosial-iqtisadi inkişafına təkan verməklə şəhərsalma təcrübəsi baxımından mütərəqqi nümunə yaratmışdır".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasından sonra meydana çıxan sosial-iqtisadi və mədəni-humanitar çağırışlar fonunda şəhərsalma siyasətində yeni mərhələ başlanmışdır: "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Proqramının mühüm tərkib hissəsi kimi innovativ yanaşmalar əsasında sosial inklüzivlik, ekoloji təhlükəsizlik, o cümlədən yaşıl infrastruktur quruculuğu əsas götürülməklə "ağıllı şəhər" konsepsiyası həyata keçirilməkdədir ki, bu da dayanıqlı məskunlaşmanın, o cümlədən müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaradır".

Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın çağdaş tələblərə adekvat şəhərsalma siyasəti ərazi bütövlüyünün qorunması, davamlı iqtisadi inkişafın təmini, sosial rifahın yüksəldilməsi, tarixi-mədəni irsin mühafizəsi kimi dövlətçilik prinsiplərinə söykənməklə milli gücümüzün artmasına xidmət göstərir: "Bütün bu nailiyyətlər və gələcəyə yönəlik aydın strateji baxış dünya miqyasında Azərbaycan təcrübəsinə böyük maraq göstərilməsini şərtləndirir. Təsadüfi deyil ki, BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair qərarın qəbulu Azərbaycanın dayanıqlı inkişaf siyasətinə, o cümlədən beynəlxalq müstəvidə şəhərsalma prosesinə töhfələrinə verilən yüksək qiymətin və etibarlı tərəfdaş imicinin bariz göstəricisidir. Şübhə yoxdur ki, müstəqil və qüdrətli Azərbaycan dövləti bu mötəbər tədbirə də uğurla ev sahibliyi edəcəkdir. Əminəm ki, hər zaman milli prioritetlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsində yüksək fəallığı ilə seçilən Yeni Azərbaycan Partiyasının çoxminli üzvləri, o cümlədən Bakı Metropoliteninin əməkdaşları da bu prosesdə əllərindən gələni əsirgəməyəcəklər".

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, bu gün müasir şəhərsalmanı metropolitensiz təsəvvür etmək mümkün deyil: "Sərnişin daşınmasında kütləviliyi ilə əvəzsiz rola malik, insanların sərbəst, sürətli və təhlükəsiz hərəkətini təmin edən, ekoloji cəhətdən ən zərərsiz olan nəqliyyat növü kimi Bakı Metropoliteni öz infrastrukturunu inkişaf etdirməklə, innovativ yenilikləri daim tətbiq etməklə çağdaş dövrün yeni tələblərinə uyğun xalqa xidmət etməkdədir. Böyük Zəfərimizin əbədiləşdirilməsi baxımından ən önəmli rəmzlərdən biri olan "8 Noyabr" metrostansiyası, düşünürəm ki, bütün şəhidlərimizin xatirəsini yaşadır. 30 şəhid ailəsi üzvünün, 350-ə yaxın müharibə iştirakçısının çalışdığı Bakı Metropoliteninin əməkdaşlarına bu xatirənin yaşadılmasına, doğma Bakımızın inkişafına verdikləri töhfələrə görə minnətdarlığımızı bildiririk. Fürsətdən istifadə edərək hər birinizi qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edir, möhkəm cansağlığı, uzun ömür və Prezident İlham Əliyevin ətrafında sıx birləşərək daha güclü Azərbaycan naminə davam etdirdiyiniz şərəfli fəaliyyətinizdə yeni uğurlar arzulayıram".

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssisi, Vətən müharibəsi qəhrəmanı, şəhid polkovnik-leytenant Əfqan Abdurahmanovun qızı Hilalə Əfqan Ulu Öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu, Vətənə bağlı əqidəli insanları sıralarında birləşdirən Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan böyük qürur duyduğunu söyləyib: "Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə dediyi "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" fikri bu gün də öz aktuallığını itirməyib. Məqsədimiz Ulu Öndərin əmanəti olan ölkəmizi qorumaq, onu hər zaman güclü görmək və bunun üçün çalışmaqdır".

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsi zamanı misilsiz qəhrəmanlıq göstərən Azərbaycan gəncliyi bundan sonra elm, təhsil, mədəniyyət, idman, ictimai-siyasi və innovasiya sahələrində də ölkəmizi gələcəyə inamla daşımaq potensialına malikdir. "Qarşıda bizi böyük quruculuq işləri gözləyir. Amalımız ölkəmizin hər bir sahədə inkişafı, çiçəklənməsi naminə var qüvvəmizlə çalışmaq, Vətənə xidmət etməkdir", - deyə H.Əfqan əlavə edib.

Çıxış edən "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin qatar maşinisti, Vətən müharibəsi iştirakçısı Səlim Rüstəmov isə deyib: "Tariximizin ən şanlı səhifələrinin yazıldığı 2020-ci ildə ərazi bütövlüyümüzün, sərhədlərimizin qorunması Vətən qarşısında əsas borcumuz olub. Cəmi 44 gün davam edən bir şanlı yürüşün iştirakçısı olmaq qürurvericidir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun xalqımıza bəxş etdiyi bu qürur, əminəm ki, əbədi olacaq. Çünki bu Vətən onun uğrunda canını qurban vermiş şəhidlərin ali məqamını həmişə uca tutaraq sabaha inamla addımlayacaqdır".

S.Rüstəmov təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasının Azərbaycanın gələcəyi naminə əzmlə çalışdığını vurğulayaraq ümumxalq etimadı qazanmış nüfuzlu bir partiyanın üzvü olmaqdan böyük fəxarət duyduğunu söyləyib.

Sonra YAP sıralarına yeni qəbul olunan bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda xatirə şəkli çəkdirilib.

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

**31 dekabr 2025-ci il tarixinə**

**1 nömrəli Forma**

**VÖEN: 1500150281**
**Siyasi partiyanın adı: YENİ AZƏRBAYCAN PARTİYASI**
**Hüquqi ünvanı: Bakı şəhəri, Xətai rayonu, S. Senyuşkin küçəsi 26**

**(manatla)**

| Bölmə/maddələrin adı | Qeydlər | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Aktivlər** | | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | | |
| Qeyri-maddi aktivlər | 1 | 34 220 | | 34 353 | |
| Torpaq, tikili və avadanlıqlar | 2 | 50 592 029 | | 31 980 652 | |
| Daşınmaz əmlaka investisiyalar | 3 | - | | - | |
| Uzunmüddətli debitor borcları | 4 | 17 471 | | - | |
| Sair uzunmüddətli aktivlər | 5 | 1 600 | | 1 600 | |
| **Cəmi uzunmüddətli aktivlər** | | | **50 645 320** | | **32 016 605** |
| **Qısamüddətli aktivlər** | | | | | |
| Ehtiyatlar | 6 | 118 739 | | 110 653 | |
| Qısamüddətli debitor borcları | 7 | 85 653 | | 106 809 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 62 501 322 | | 40 589 591 | |
| Sair qısamüddətli aktivlər | 9 | 16 056 | | 22 940 | |
| **Cəmi qısamüddətli aktivlər** | | | **62 721770** | | **40 829 993** |
| **Cəmi aktivlər** | | | **113 367 090** | | **72 846 598** |
| **Xalis aktivlər (kapital) və öhdəliklər** | | | | | |
| **Xalis aktivlər (kapital)** | | | | | |
| Ehtiyat fondu | 10 | 29 232 574 | | 8 151 664 | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 11 | 81 994 037 | | 64 609 420 | |
| **Cəmi xalis aktivlər (kapital)** | | | **111 226 611** | | **72 761 084** |
| **Uzunmüddətli öhdəliklər** | | | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 12 | - | | - | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | 13 | - | | - | |
| Uzunmüddətli kreditor borcları | 14 | - | | - | |
| Sair uzunmüddətli öhdəliklər | 15 | 41 640 | | 48 438 | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | **41 640** | | **48 438** |
| **Qısamüddətli öhdəliklər** | | | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 16 | - | | 6 767 | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 17 | - | | - | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 18 | 2 002 236 | | 8 823 | |
| Qısamüddətli kreditor borcları | 19 | 89 805 | | 14 688 | |
| Sair qısamüddətli öhdəliklər | 20 | 6 798 | | 6 798 | |
| **Cəmi qısamüddətli öhdəliklər** | | | **2 098 839** | | **37 076** |
| **Cəmi öhdəliklər** | | | **2 140 479** | | **85 514** |
| **Cəmi xalis aktivlər (kapital) və öhdəliklər** | | | **113 367 090** | | **72 846 598** |

## MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT

**31 dekabr 2025-ci il tarixinə**

**2 nömrəli Forma**

**VÖEN: 1500150281**
**Siyasi partiyanın adı: YENİ AZƏRBAYCAN PARTİYASI**
**Hüquqi ünvanı: Bakı ş, Xətai rayonu, S. Senyuşkin küçəsi 26**

**(manatla)**

| Maddələrin adı | Qeydlər | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Gəlirlər** o cümlədən: | | | **47 478 750** | | **35 009 092** |
| üzvlük haqqı | 21 | 33 936 225 | | 31 387 950 | |
| ianə | 22 | 16 804 | | - | |
| dövlət maliyyə yardımı | 23 | 3 004 615 | | 2 598 862 | |
| çap mediasının təsis edilməsindən, o cümlədən çap mediasının iştirakçısı olmaqdan əldə edilən gəlir | 24 | 470 988 | | 501 414 | |
| ictimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat materiallarının hazırlanması və satışından gəlir | 25 | - | | - | |
| mülki hüquq müqavilələri üzrə, o cümlədən əmlakından istifadə və onun satılmasından əldə edilən gəlir | 26 | 9 926 058 | | 25 140 | |
| hüquq varisliyi və ya vərəsəlik (miras aktivi) yolu ilə əldə edilmiş əmlak | 27 | - | | - | |
| qanunla qadağan olunmayan digər gəlirlər | 28 | 124 060 | | 495 726 | |
| **Xərclər,** o cümlədən: | | | **(28 112 277)** | | **(24 795 332)** |
| cari işlərə sərf olunan vəsait | 29 | (3 093 506) | | (1 451 858) | |
| siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər | 30 | (20 098 651) | | (19 495 886) | |
| ictimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər | 31 | (126 000) | | (675 280) | |
| yerli (aşağı) təşkilatlara ödənişlər | 32 | - | | - | |
| kreditlər üzrə faizlər | 33 | - | | - | |
| fərdi xərclər | 34 | (502 112) | | (255 154) | |
| sair xərclər | 35 | (4 292 008) | | (2 917 154) | |
| **ümumi mənfəət (zərər)** | | | **19 366 473** | | **10 213 760** |

AZEL-AUDIT

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

## MÜSTƏQİL AUDİTORUN HESABATI - RƏYİ

**Yeni Azərbaycan Partiyasının İdarə Heyətinə**

**Maliyyə hesabatının auditinə dair hesabat (Rəy)**

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 29 dekabr 2025-ci il tarixli № AT/118 saylı icazəyə əsasən fəaliyyət göstərən "Azel-Audit" MMC-nin direktoru, Auditorlar Palatasının üzvü Süleymanova Elzadə Süleyman qızı, Yeni Azərbaycan Partiyasının (bundan sonra "Partiya") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat və həmin tarixdə tamamlanan il üzrə maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat, eləcə də əhəmiyyətli uçot siyasəti və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatının audit yoxlamasını apardım.

Hesab edirəm ki, təqdim edilən maliyyə hesabatı bütün əhəmiyyətli aspektlər baxımından Partiyanın 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə fəaliyyətinin nəticələrini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 30 avqust tarixli 238 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyalarda mühasibat uçotunun aparılması Qaydaları"na və 03 avqust 2023-cü il tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"na uyğun olaraq düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatın "Maliyyə hesabatının auditinə görə auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsi"nin tələblərinə uyğun olaraq Partiyadan asılı deyiləm. Mən digər etik öhdəliklərimi Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsi"nin tələblərinə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatına görə rəhbərliyin və audit subyektinin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 30 avqust tarixli 238 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyalarda mühasibat uçotunun aparılması Qaydaları"na və 3 avqust 2023-cü il tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"na uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə məsuliyyət daşıyır.

AZEL-AUDIT

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

**Maliyyə hesabatının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatında əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və maliyyə hesabatının auditinə dair hesabat (rəy) dərc etməkdir.

Beynəlxalq audit standartlarının (BAS) tələblərinə uyğun olaraq audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar şübhə (skeptisizm) nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatında əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm.

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Partiyanın fəaliyyətini fasiləsiz davam etmək imkanını şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

"Azel Audit" MMC-nin

direktoru və auditoru: Süleymanova E. S

Azərbaycan Respublikası, Bakı şəhəri

11 mart 2026-cı il

# Bank Nəzarəti Strategiyası

## Azərbaycan banklarında risk əsaslı nəzarət sistemi təkmilləşdiriləcək

Mərkəzi Bank (MB) risk əsaslı nəzarət prosesləri çərçivəsində 2026-2027-ci illəri əhatə edən Bank Nəzarəti Strategiyasını təsdiqləyib. Sənəd maliyyə sektorunun inkişafı çərçivəsində müəyyən edilmiş hədəflərə uyğun olaraq Dünya Bankı ilə birgə həyata keçirilən "Maliyyə sektorunun modernizasiyası layihəsi" çərçivəsində hazırlanıb və risk əsaslı nəzarətin həyata keçirilməsini nəzərdə tutur.

Qeyd edək ki, MB Dünya Bankı ilə birgə həyata keçirilən "Maliyyə sektorunun modernizasiyası layihəsi" çərçivəsində risk əsaslı nəzarətin həyata keçirilməsi üzrə nəzərdə tutulmuş təşəbbüsləri uğurla icra edib. Ötən iki il ərzində həmin konsepsiyadan irəli gələrək ARAS adlandırılan Azərbaycan Risklərin Qiymətləndirilməsi Sistemi (Azerbaijan Risk Assessment System) qurulub, risk əsaslı nəzarət alətlərinin yaradılması və pilot banklar üzrə testləşdirilməsi təmin olunub. Ötən ilin dekabr ayında "Mərkəzi Bankın banklara risk əsaslı nəzarət üzrə təlimatı" təsdiq edilib. Risk əsaslı nəzarətin məqsədi maliyyə sektorunun əsas risklərinə istiqamətlənmiş nəzarət çərçivəsini formalaşdırmaqdır. Mərkəzi Bank bu nəzarət yanaşmasını tətbiq etməklə, sistem riskinə səbəb ola biləcək nəzarət subyektlərinə nəzarəti intensivləşdirməklə sistem riskinin qarşısını almağı hədəfləyir. Bu yanaşma maliyyə sektorunun dayanıqlığını gücləndirməklə, ölkə iqtisadiyyatının sabitliyinə töhfə vermiş olur. Beləliklə, həmin konseptual yanaşma və təlimatdan irəli gələrək Bank Nəzarəti Strategiyası təsdiqlənib.

Strategiya növbəti iki ildə banklar üçün daha aktual hesab olunan risk istiqamətləri üzrə aşağıdakı nəzarət prioritetlərinin icrasını hədəfləyir:

* Bankların makroiqtisadi xarakterli təhlükələrə qarşı dayanıqlılığının gücləndirilməsi;

* Bankların biznes model dayanıqlığı və gəlirliliyin idarə edilməsi üzrə fəaliyyətinin təkmilləşdirilməsi;

* Bankların əməliyyat dayanıqlılığının gücləndirilməsi;

* Bankların risk idarəetmə çərçivəsinin modernizasiyası;

* Banklarda korporativ idarəetmə, risk mədəniyyəti və istehlakçı hüquqlarının qorunması üzrə çərçivənin gücləndirilməsi.

### Sağlam risk idarəetməsinin təmin olunması



Bundan əlavə, qeyd olunan prioritetlərin dəstəklənməsi üçün Bank Nəzarəti Strategiyası çərçivəsində banklarda risklərin idarə edilməsi və stress-testləşdirmə çərçivəsinin təkmilləşdirilməsinə dair tənzimləmələrin modernizasiyası, banklarda korporativ idarəetmə standartlarına dair tövsiyələrə əsasən, tənzimləyici çərçivənin daxil edilməsi, Basel III standartları ilə uyğunluğun artırılması istiqamətində banklara münasibətdə Daxili Kapital Adekvatlığının Qiymətləndirilməsi Prosesi (ICAAP) və Daxili Likvidlik Adekvatlığının Qiymətləndirilməsi Prosesi (ILAAP) üzrə tələblərin tətbiqi, İqlim və ESİ risklərinin tənzimləmə və nəzarət çərçivəsinə inteqrasiyası nəzərdə tutulur.

Proaktiv və effektiv nəzarət müdaxiləsinin seçilməsi. Risk əsaslı nəzarət reaktiv tədbirlərin əvəzinə risklərin erkən müəyyən edilməsinə və problemlər yaranmazdan əvvəl qabaqlayıcı tədbirlər görməyə imkan yaradır. Nəzarət resurslarının səmərəli istifadəsi. Risk əsaslı nəzarət yanaşmasında yüksək risk profilinə malik nəzarət subyektlərinə daha çox diqqət ayrılır ki, bu da nəzarət resurslarının daha effektiv və səmərəli paylanmasını təmin edir. Risk əsaslı nəzarətin tətbiqi proporsionallıq prinsipinə uyğun olaraq, aşağı risk profilli nəzarət subyektlərinin nəzarət yükünü azaldır.

Sağlam risk idarəetməsinin təmini də bank sektporunda əsas prioritetlərdən hesab edilir. Risk əsaslı nəzarət yanaşmasında nəzarət subyektinin risk reytinqi, buna uyğun tətbiq olunan nəzarət alətləri subyektin risk idarəetməsinin keyfiyyətindən birbaşa asılıdır. Bu da həmin subyektlərdə təkmil risk idarəetməsi və daxili nəzarətin formalaşmasını şərtləndirir. Eləcə də, maliyyə sektorunda kibertəhlükəsizlik, ekoloji, sosial və idarəetmə və digər risklərin artması nəzarət subyektəri ilə yanaşı nəzarət orqanından da çevik uyğunlaşma tələb edir ki, məhz bu yanaşma sayəsində yeni risklərə nəzarət prosesinə daha sürətli inteqrasiyasa təmin etmək mümkün olur.

**Bank Nəzarəti Strategiyası çərçivəsində banklarda risklərin idarə edilməsi və stress-testləşdirmə çərçivəsinin təkmilləşdirilməsinə dair tənzimləmələrin modernizasiyası, banklarda korporativ idarəetmə standartlarına dair tövsiyələrə əsasən, tənzimləyici çərçivənin daxil edilməsi, Basel III standartları ilə uyğunluğun artırılması istiqamətində banklara münasibətdə Daxili Kapital Adekvatlığının Qiymətləndirilməsi Prosesi (ICAAP) və Daxili Likvidlik Adekvatlığının Qiymətləndirilməsi Prosesi (ILAAP) üzrə tələblərin tətbiqi, İqlim və ESİ risklərinin tənzimləmə və nəzarət çərçivəsinə inteqrasiyası nəzərdə tutulur.**

### Bank sektorunun potensial şoklara qarşı dayanıqlılığının artırılması

"Azərbaycan Respublikası Mərkəzi Bankının ödəniş sistemləri üzrə nəzarət konsepsiyasın"a və "Azərbaycan Respublikasında banklararası mərkəzləşdirilmiş ödəniş sistemlərində hesablaşmaların təşkili Qaydaları"na əsasən hər il Mərkəzi Bankın operatoru olduğu AZİPS üzrə il ərzində iştirakçılar tərəfindən aparılmış əməliyyatların ümumi həcminin 2 faizindən çox paya malik olan iştirakçılar sistem əhəmiyyətli iştirakçı kimi qiymətləndirilir. Sistem əhəmiyyətli iştirakçı fövqəladə hallarda sistemlərin fəaliyyətinin davamlılığını təmin etmək məqsədi ilə ehtiyat mərkəz yaratmalı və fövqəladə hallara hazırlıq səviyyəsini yoxlamaq üçün ən azı rübdə bir dəfə real vaxt rejimində ödəniş sistemlərində iştirakını ehtiyat mərkəz vasitəsilə təmin etməlidir. Sistem əhəmiyyətli iştirakçı ehtiyat mərkəzdə həyata keçirdiyi fəaliyyəti başa çatdırdıqdan sonra nəticəsi barədə hesabatı Mərkəzi Banka təqdim edir.

Bundan başqa, sistem əhəmiyyətli iştirakçı ehtiyat mərkəzi ilə əsas mərkəz arasında əsas proqram təminatları üzrə məlumat mübadiləsinin təşkilinə dair tərtib edilmiş topoloji diaqramı, ehtiyat mərkəzin yerləşdiyi ünvan barədə məlumatı, fövqəladə hallarda fəaliyyətinin davamlılığının təmin olunması üçün sorğuların cavablandırılması və məlumat mübadiləsinin aparılmasına məsul olan əməkdaşları təyin edərək onları təlimatlandırmalı, həmçinin bu əməkdaşlar haqqında məlumatı hər ilin fevral ayının 25-dən gec olmayaraq Mərkəzi Banka təqdim etməlidir. Eyni zamanda, fövqəladə hallar zamanı sistemlərdə fəaliyyətin davamlılığının təmin edilməsi məqsədi ilə sistem əhəmiyyətli iştirakçının fövqəladə hallarda fəaliyyətinin davamlılığı və bərpa planları olmalıdır. Fövqəladə hallarda fəaliyyətin davamlılığı planı və bərpa planı ildə bir dəfədən gec olmayaraq yenilənməli və Mərkəzi Banka təqdim edilməlidir.

Mərkəzi Bankın missiyası maliyyə bazarlarının sabitliyini və dayanıqlığını təmin etmək, makroprudensial nəzarət çərçivəsində sistem riskini idarə etmək və potensial təhdidləri azaltmaqdır. Bu baxımdan, MB-nin risk əsaslı nəzarətin tətbiqi üzrə həyata keçirdiyi tədbirlər müvafiq Siyasət Konsepsiyası ilə müəyyən edilmiş məqsədlərə xidmət etməklə yanaşı, həm də bank sektorunun uzunmüddətli dayanıqlı inkişafının təmin olunmasına və potensial şoklara qarşı dayanıqlılığının artırılmasına töhfə verəcək.

Beləliklə, mütərəqqi nəzarət orqanlarının tətbiq etdiyi və beynəlxalq təşkilatların tövsiyə etdiyi yanaşma olan risk əsaslı nəzarətin qurulması və yeni nəzarət strategiyasının icrası ölkənin maliyyə sektoruna inamın artmasını təmin edir.

***E.CƏFƏRLİ***

# Rəqəmsal transformasiya və Azərbaycan

## Qarşıdakı illər üçün yeni inkişaf mərhələsi

Müasir dünyada rəqəmsal texnologiyalar texniki yenilik olmaqla bərabər həm də iqtisadi inkişafın, dövlət idarəçiliyinin və milli təhlükəsizliyin əsas sütunlarından birinə çevrilib. Qlobal rəqabətin kəskinləşdiyi, texnoloji innova-



siyaların iqtisadi gücü müəyyən etdiyi bir dövrdə dövlətlərin rəqəmsal transformasiyaya uyğun strategiyalar formalaşdırması həyati əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" ölkənin gələcək inkişaf modelində mühüm mərhələ kimi qiymətləndirilə bilər.

**Rəqəmsal inkişaf - iqtisadi artımın yeni lokomotivi**

Son illər Azərbaycanda rəqəmsallaşma sahəsində mühüm nailiyyətlər əldə olunub. Elektron hökumət sistemlərinin genişləndirilməsi, rəqəmsal identifikasiya mexanizmlərinin tətbiqi və bulud texnologiyalarının inkişafı dövlət idarəçiliyində səmərəliliyi artırıb. Xüsusilə biometrik rəqəmsal imza sistemi olan SİMA platformasının tətbiqi milyonlarla istifadəçiyə elektron xidmətlərdən rahat istifadə imkanı yaradıb. Bununla yanaşı, "Hökumət buludu"nun yaradılması dövlət informasiya sistemlərinin daha təhlükəsiz və effektiv idarə olunmasına şərait formalaşdırıb. Bu addımlar nəticəsində Azərbaycan BMT-nin Elektron Hökumətin İnkişafı İndeksində irəliləyərək "çox yüksək inkişaf etmiş ölkələr" kateqoriyasına daxil olub. Lakin rəqəmsal iqtisadiyyatın inkişafı yalnız texnoloji infrastruktura deyil, innovasiya ekosisteminə, insan kapitalına və müasir idarəetmə modellərinə də əsaslanır. Bu səbəbdən yeni fəaliyyət planı məhz həmin istiqamətlərin kompleks şəkildə inkişafını nəzərdə tutur.

Müasir iqtisadi sistemdə məlumatlar strateji resurs kimi çıxış edir. Dövlət və özəl sektorun fəaliyyətində böyük verilənlərin təhlili qərarvermə prosesini daha dəqiq və səmərəli edir. Azərbaycanda da rəqəmsal inkişaf strategiyasının əsas istiqamətlərindən biri vahid məlumat idarəçiliyi modelinin tətbiqidir. Bu yanaşma dövlət orqanları arasında məlumat mübadiləsini optimallaşdıraraq "yalnız bir dəfə" prinsipini həyata keçirməyi nəzərdə tutur. Yəni vətəndaş və biznes subyektləri dövlət qurumlarına eyni məlumatı təkrar təqdim etməli olmayacaq. Nəticədə bürokratik prosedurlar azalacaq, xidmətlərin göstərilmə sürəti və keyfiyyəti artacaq. Bununla yanaşı, fəaliyyət planı innovasiya maliyyələşməsi sahəsində də yeni mexanizmlərin yaradılmasını nəzərdə tutur.

Qlobal texnoloji yarışın ən mühüm istiqamətlərindən biri süni intellekt texnologiyalarıdır. Generativ süni intellekt və böyük dil modelləri iqtisadiyyatın bütün sahələrində məhsuldarlığı artırmaq potensialına malikdir. Yeni fəaliyyət planında xüsusi vurğulanan məsələlərdən biri "suveren süni intellekt" konsepsiyasının inkişafıdır. Bu yanaşma ölkələrin öz milli məlumat resurslarına və texnoloji infrastrukturuna əsaslanan süni intellekt sistemləri yaratmasını nəzərdə tutur. Belə sistemlər dövlət idarəçiliyində qərarvermə proseslərini optimallaşdırmaqla yanaşı, informasiya təhlükəsizliyi baxımından da strateji əhəmiyyət daşıyır. Bu istiqamətdə Azərbaycan dilində böyük dil modellərinin hazırlanması və yüksək performanslı hesablama infrastrukturlarına investisiyaların artırılması planlaşdırılır.

**Azərbaycanda rəqəmsal inkişaf strategiyasının əsas istiqamətlərindən biri vahid məlumat idarəçiliyi modelinin tətbiqidir. Bu yanaşma dövlət orqanları arasında məlumat mübadiləsini optimallaşdıraraq "yalnız bir dəfə" prinsipini həyata keçirməyi nəzərdə tutur. Yəni vətəndaş və biznes subyektləri dövlət qurumlarına eyni məlumatı təkrar təqdim etməli olmayacaq. Nəticədə bürokratik prosedurlar azalacaq, xidmətlərin göstərilmə sürəti və keyfiyyəti artacaq.**

**Rəqəmsal təhlükəsizlik və kibermüdafiə**

Rəqəmsallaşmanın sürətlənməsi yeni təhlükələr də yaradır. Qlobal miqyasda kiberhücumların miqyası və mürəkkəbliyi artmaqdadır. Süni intellekt əsaslı hücumlar, təchizat zənciri riskləri və kritik informasiya infrastrukturlarına yönəlmiş təhdidlər dövlətlərin təhlükəsizlik gündəliyində əsas mövzulara çevrilib. Bu baxımdan fəaliyyət planı yalnız kibermüdafiə tədbirlərini yox, rəqəmsal dayanıqlılıq konsepsiyasını da ön plana çıxarır. Yəni kiberinsidentlər baş verdikdən sonra sistemlərin sürətli bərpası və risklərin effektiv idarə olunması üçün yeni mexanizmlərin yaradılması nəzərdə tutulur.

**İnsan kapitalı və "istedad müharibəsi"**

Yüksək texnologiyalar sahəsində ən ciddi problemlərdən biri ixtisaslı kadr çatışmazlığıdır. Süni intellekt, data analitikası, kibertəhlükəsizlik və proqram mühəndisliyi sahələrində mütəxəssislərə qlobal tələbat təklifi xeyli üstələyir. Bu səbəbdən fəaliyyət planında həm milli kadr potensialının inkişafı, həm də xarici mütəxəssislərin ölkəyə cəlb edilməsi üçün yeni mexanizmlər nəzərdə tutulur. "Rəqəmsal səyyah" vizası, çevik miqrasiya prosedurları və beynəlxalq əməkdaşlıq proqramları Azərbaycanda texnoloji ekosistemin güclənməsinə xidmət edəcək. Planın uğurlu icrası sayəsində qarşıdakı illərdə bir neçə strateji nəticə əldə olunması gözlənilir. Bunlara aşağıdakılar daxildir:

İKT sektorunun qeyri-neft ÜDM-də payının artırılması;

rəqəmsal məhsul və xidmətlərin ixracının genişləndirilməsi;

dövlət xidmətlərinin əhəmiyyətli hissəsinin proaktiv formada göstərilməsi;

innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi.

Bu hədəflər Azərbaycanın yalnız regionda deyil, daha geniş beynəlxalq məkanda rəqəmsal iqtisadiyyatın fəal iştirakçısına çevrilməsinə imkan yarada bilər.

Artıq rəqəmsal transformasiya XXI əsrin dövlət strategiyalarında əsas prioritetlərdən birinə çevrilib. Azərbaycan da bu qlobal prosesdən kənarda qalmayaraq rəqəmsal iqtisadiyyatın inkişafı üçün kompleks institusional və texnoloji baza formalaşdırmaqdadır. 2026-2028-ci illər üçün qəbul olunmuş fəaliyyət planı göstərir ki, ölkə yalnız mövcud texnologiyaları tətbiq etməklə kifayətlənmək niyyətində deyil. Məqsəd innovasiya yaradan, süni intellekt əsaslı texnologiyalar inkişaf etdirən və rəqəmsal suverenliyini təmin edən güclü bir dövlət modelinin qurulmasıdır. Beləliklə, rəqəmsal inkişaf strategiyası Azərbaycanın gələcək iqtisadi gücünün və idarəetmə səmərəliliyinin formalaşmasında həlledici rol oynayacaq.



***Kəramət Qənbərov***
***Beynəlxalq hüquq üzrə ekspert***

# Günü 1,8 milyard dollarlıq müharibə...



## Gizli vasitəçilər danışıqlar masası yarada biləcəkmi?

Yaxın Şərqdə silahlar susmur. Fevralın sonundan başlayan döyüşlər davam etməkdədir. Bir sıra xarici KİV-lər, xüsusilə, Avropa mətbuatı döyüşlərin yaxın zamanda bitməyəcəyini deyir. Paralel olaraq xərclənən maliyyə "göz qamaşdırır". Belə ki, ABŞ Müdafiə Nazirliyi Konqresə təqdim etdiyi gizli hesabatda İranla davam edən hərbi əməliyyatların rəsmi "xərcini" açıqlayıb. "The New York Times"ın məlumatına görə, Kapitolidə keçirilən qapalı brifinqdə qanunvericilərə döyüşlərin ilk altı gününün büdcəyə 11,3 milyard dollardan baha başa gəldiyi bildirilib. Qeyd olunur ki, bu məbləğ yalnız aktiv döyüş əməliyyatlarını, sərf olunan raketləri, aviasiya yanacağını və hərbi texnikanın cari təmirini əhatə edir.

Təqdim olunan 11,3 milyard dollarlıq ilkin qiymətləndirməyə müharibədən əvvəl həyata keçirilən genişmiqyaslı qoşun yığılması, hərbi personalın regiona daşınması və texnikanın yerləşdirilməsi xərcləri daxil edilməyib. Bu səbəbdən konqresmenlər birinci həftənin ümumi xərcinin hesablanması başa çatdıqdan sonra rəqəmin əhəmiyyətli dərəcədə artacağını gözləyirlər. Bununla belə ekspertlər gündəlik tutumu 1,8 milyard dollar olan hərbi xərcin dövlət üçün böyük çətinliklər yarada biləcəyi qənaətindədir.

**ABŞ Livana qarşı...**

Livanın "Hizbullah" hərəkatı İsrailə qarşı hərbi əməliyyatın başladığını elan edib. Məlumata görə, təşkilat İsrailin şimal bölgələrinə təxminən 100 raket atıb. Bildirilir ki, bu hücum son eskalasiyadan bəri ən böyük hücumlardan biri hesab olunur. İsrail ordusu hücumdan sonra bölgə sakinlərinə təhlükəsizlik məqsədilə sığınacaqlarda qalmaq çağırışı edib. Rəsmi açıqlamada qeyd olunub ki, raket hücumlarına cavab olaraq İsrail aviasiyası Livanın paytaxtı Beyrutun cənub ətraflarına bir sıra zərbələr endirib.

ABŞ isə Livanda "Hizbullah" qruplaşmasının obyektlərinə qarşı həyata keçirilən hava zərbələrinə qoşula biləcəyini açıqlayıb. Səudiyyə Ərəbistanının "Al-Hadath" telekanalının İsrailin yüksək vəzifəli mənbəsinə istinadən yaydığı məlumata görə, Vaşinqton mümkün iştirakın formatını, zamanını və şərtlərini açıqlamayıb.

**"Əl-Həşd əş-Şaabi" koalisiyasının 19-cu briqadasına hücum olub**

ABŞ və İsrail hərbi hava qüvvələrinin İraqın qərbində həyata keçirdiyi birgə əməliyyat nəticəsində İrana yaxın silahlı qruplaşmalar ağır itkilər verib. İraq mediasının yaydığı məlumata görə, Suriya ilə sərhəddə yerləşən Akaşat bölgəsində şiə könüllülərindən ibarət "Əl-Həşd əş-Şaabi" koalisiyasının 19-cu briqadasına məxsus hərbi obyektlər hədəf alınıb. Gecə saatlarında endirilən nöqtə atışları nəticəsində ən azı 35 döyüşçü həlak olub, onlarla silahlı isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Bombardman "Əl-Həşd əş-Şaabi"nin sərhəd təhlükəsizliyini təmin edən qərargahlarını və silah anbarlarını əhatə edib. İsrail və ABŞ-ın birgə istifadə etdiyi qırıcılar bölgədəki logistik mərkəzləri yerlə-yeksan edib.

**İtaliya bazasına da hücum edilib**

İtaliyanın müdafiə naziri Quido Krosetto İraqın Ərbil şəhərindəki İtaliya bazasına zərbə endirildiyini təsdiqləyib. Heç bir hərbçinin xəsarət almadığı bildirilib. "Ərbildəki bazamıza raket dəyib. İtaliyalı personal arasında itki və ya xəsarət alan olmayıb. Hamı təhlükəsizdir", - məlumatda deyilir. Xarici işlər naziri Antonio Tayani bildirib ki, baza digər ölkələrə məxsus bazaları əhatə edən bir kompleksdə yerləşir. "Biz onun italyanlara, yoxsa bütün strukturlara yönəldiyini bilmirik", - deyə o bildirib. O əlavə edib ki, raketin İran ərazisindən, yoxsa İraqda fəaliyyət göstərən İranyönlü qruplardan atıldığı bəlli deyil.

**Almaniya müharibənin bitməsini istəyir**

Almaniya isə müharibənin tez başa çatmasını arzulayır və dəstəkləyir. Almaniya kansleri Fridrix Merts uzanan münaqişənin getdikcə daha çox şübhə doğurduğunu bildirib və hazırda döyüşlərin tez bir zamanda aydın şəkildə başa çatmasına imkan verəcək razılaşdırılmış bir planın olmadığını vurğulayıb. Onun sözlərinə görə, on gündən çox davam edən müharibədən sonra vəziyyət gərginləşməyə davam edir və Berlin mümkün qədər tez bir zamanda daha da gərginləşmənin qarşısını almağı vacib hesab edir.

**Pezeşkian təzminat tələb edir**

Bu arada ABŞ Prezidenti Donald Tramp da müharibə ilə bağlı açıqlamalar verib. O bildirib ki, İranla bağlı hərbi əməliyyatlar son mərhələyə yaxınlaşır. Trampın sözlərinə görə, müharibə tezliklə başa çata bilər, çünki artıq hədəf alınacaq obyektlərin sayı demək olar ki, qalmayıb. ABŞ prezidenti qeyd edib ki, həyata keçirilən zərbələr nəticəsində İranın hərbi və strateji imkanları ciddi şəkildə zəiflədilib. "İran artıq məğlubdur, məsələ demək olar ki, həll edilib. İranın müqavimət gücü demək olar ki, qalmayıb. Biz onların hər şeyini sıradan çıxarmışıq", - deyə Tramp qeyd edib. "Axios"un məlumatına görə, Vaşinqtonda da əməliyyatların yaxın müddətdə yekunlaşa biləcəyi barədə müzakirələr aparılır.

İran Prezidenti Məsud Pezeşkian isə sosial media hesabında paylaşım edib. Bildirilib ki, "Müharibə yalnız İranın qanuni haqlarını tanınacağı təqdirdə bitə bilər". M.Pezeşkian həmçinin, İrana təzminat ödənilməli olduğunu vurğulayıb.

Qeyd edək ki, siyasi ekspertlər müharibənin bitmə zamanından daha çox bərpa prosesinin vaxt alacağını düşünür. Qeyd olunur ki, müharibənin həm iqtisadiyyata, həm də beynəlxalq münasibətlərə təsiri daha çox zaman alacaq. Bu isə qlobal iqtisadiyyat üçün müsbət vədlər vermir.

**Trampın müharibə açıqlamaları - üfüqdə danışıqlar görünür?**

Donald Tramp İranla bağlı keçirilən hərbi əməliyyatlara münasibət bildirərkən ABŞ ordusunun fəaliyyətini yüksək qiymətləndirib və əməliyyatı "kiçik ekskursiya" kimi xarakterizə edib. Onun sözlərinə görə, bu proses iki həftə davam edib və ABŞ hərbçiləri özlərini "inanılmaz dərəcədə yaxşı" göstəriblər. "Nəhayət bu kiçik iki həftəlik ekskursiyaya çıxmalı olduq. Amma bu, inanılmaz idi. Hərbçilərimiz sadəcə möhtəşəm iş gördülər", - deyə ABŞ prezidenti bildirib.

Tramp həm də sona qədər döyüşəcəklərini bildirib - qeyd edib ki, hərbi əməliyyatlar qarşı tərəf tam və qəti şəkildə məğlub edilənə qədər davam edəcək. Trampın sözlərinə görə, ABŞ və müttəfiqləri artıq bir çox istiqamətlərdə üstünlük əldə edib, lakin, bu hələ kifayət deyil: "Düşmən tam və qəti şəkildə məğlub edilənə qədər heç vaxt dayanmayacağıq. Bir çox baxımdan artıq qalib gəlmişik, amma hələ kifayət qədər qələbə qazanmış deyilik".

Ekspertlərin fikrincə, ABŞ prezidentinin müharibənin gedişi ilə bağlı ziddiyyətli fikirlər söyləməsi müharibə ilə bağlı mövqenin tez-tez yenilənməsi ilə də bağlı ola bilər. Hətta müharibənin başa çatması üçün danışıqlar formatının müəyyənləşdirilməsi ilə bağlı müzakirələrin aparılmasına da işarə olunur. Vurğulanır ki, bu kimi informasiyalar ciddi şəkildə gizliliyini qoruyur. Amerika KİVlərinin mənbələrə istinadən yaydığı məlumata görə, Oman, Misir və Türkiyə İran ilə ABŞ arasında dialoqun qurulması üçün vasitəçilik etməyə çalışır. Məlumata əsasən, ABŞ prezidenti Donald Tramp da artıq müharibədən çıxış yollarını araşdırmağa başlayıb. Bununla belə, Vaşinqtondakı mənbələr bildirir ki, müharibənin yaxın zamanda dayandırılması ehtimalı hələlik zəifdir.

**İsrailin şimal bölgələrinə zərbələr endirilib**

Son günlərdə İsrailin şimal bölgələrinə və bir sıra hərbi obyektlərinə raket hücumları həyata keçirilib. Məlumatlara görə, hücumlarda kaset tipli döyüş başlıqları ilə təchiz edilmiş raketlərdən istifadə olunub. Yayılan görüntülərdə ard-arda çoxsaylı raketlərin İsrail istiqamətində buraxıldığı, səmada isə hava hücumundan müdafiə sistemlərinin intensiv şəkildə işlədiyi görünür. Lakin hücumların miqyası böyük olduğu üçün bəzi raketlərin qarşısının alınmasının çətinləşdiyi bildirilib.

**İki tanker yandı...**

İraqın Umm-Qəsr limanında isə iki tankerə hücum edilib. Əl-Cəzirənin məlumatına görə, hücum İraqın Fars körfəzi sahilində yerləşən Umm-Qəsr limanında baş verib. Bildirilir ki, hücuma məruz qalan gəmilərdən biri İraqa, digəri isə xarici şirkətə məxsus tanker olub. Zərbə nəticəsində tankerlərdən birində güclü yanğın başlayıb. İlkin məlumatlara əsasən, hadisə axşam saatlarında baş verib. Zərbə nəticəsində tanker qısa müddətdə alova bürünüb. Bildirilib ki, insident zamanı 25 dənizçi xilas edilib və xəsarət alan olmayıb. Hücumun İran tərəfindən həyata keçirildiyi iddia olunsa da, rəsmi qurumlar açıqlama verməyib.

Tehranın Rabat Kərim sənaye zonası da hava zərbələrinə məruz qalıb. Tehran meri Əlirza Zəkaninin sözlərinə görə, bölgədəki hazırkı gərginliyin ilk 10 günündə İranda təxminən 9000 müxtəlif növ obyekt İsrail və ABŞ bombardmanlarına məruz qalıb. O, İran dövlət televiziyasındakı çıxışında əlavə edib ki, "paytaxtda artıq genişmiqyaslı dağıntıların təmizlənməsi işləri aparılıb və bu proses davamlı olaraq aparılır".

**Dubayda yanğın...**

Dubayda isə pilotsuz uçuş aparatı göydələnə çırpılıb və nəticədə yanğın baş verib. Yerli hakimiyyət orqanlarının məlumatına görə, dron Dubay Krik Limanı ərazisində yaşayış binasına çırpılıb. "Binada olan bütün şəxslərin təhlükəsizliyini təmin etmək üçün təxliyə əməliyyatları aparılıb", - deyə açıqlamada bildirilib.

Qeyd edək ki, Dubay Krik Limanı (Dubai Creek Harbour) Ras-Əl-Xor Təbiət Qoruğuna bitişik böyük bir rayonudur. Buraya yaşayış sahələri, hotellər, biznes və pərakəndə satış məkanları, gəzinti yerləri, marina, ictimai çimərlik, müşahidə göyərtələri və gəzinti yeri daxildir.

**Neft yataqları hədəfə alındı**

İran isə Körfəz ölkələrindəki neft yataqlarını və yükləmə terminallarını hədəf almağa başlayıb. SEPAH artıq BƏƏ-nin Fujayra Əmirliyindəki neft yatağına və Şarja Əmirliyindəki sənaye zonasına hücum etdiyini açıqlayıb: "Fujayradakı neft yatağı və Şarjadakı sənaye zonası, eləcə də Küveytdəki hərbi bazadakı Amerika obyektləri son hücumun əsas hədəfləri olub". İran həmçinin Bəhreynin şimalındakı Muharraq əyalətində yanacaq bazasına hücum edib. Bundan başqa, İraq sahillərində 3 neft tankerinə də hücum olunub. Tankerlərdə yanğın başlayıb. Bu hücumdan sonra İraqın neft terminalları fəaliyyətini dayandırıb. Bu barədə İraq Limanları İdarəsinin baş direktoru Fərhan əl-Fartusi bildirib ki, hazırda neft limanı əməliyyatları dayandırılıb, lakin kommersiya limanları fəaliyyətini davam etdirir.

Bundan əlavə, "Şafaq Xəbər" portalının məlumatına görə, İraqın cənub bölgəsində yerləşən dünyanın ən böyük neft yataqlarından biri olan "Məcnun"a 24 saat ərzində ikinci dəfə pilotsuz təyyarə hücum edib.

İraqın Bəsrə əyalətindəki təhlükəsizlik xidmətlərinin məlumatına görə isə Məcnuna yönəlmiş PUA yataqda işləyən işçilərin yaşadığı binanın yaxınlığında düşüb, yatağa heç bir ziyan dəyməyib və xəsarət alan olmayıb.

İran eyni zamanda Səudiyyə Ərəbistanının "Şeybah" neft yatağına iki dronla hücum etməyə cəhd edib. Ər-Riyad onların məhv edildiyini açıqlayıb.

**İrana hücumlar olub...**

İran ərazisindəki bəzi hədəflərə uzaqmənzilli raket zərbələri endirilib. Məlumatda bildirilir ki, hücum zamanı ATACMS tipli taktiki ballistik raketlərdən istifadə olunub. Məlum olub ki, raketlərin bir qismi Küveyt, Bəhreyn və İraq ərazilərindən buraxılıb.

İran ordusu isə Küveytdə yerləşən və içərisində amerikalıların olduğu bildirilən binaya zərbələr endirib.

**Hindistan Hörmüzdən keçə biləcək...**

İran Hindistan bayrağı altında üzən tankerlərin Hörmüz boğazından keçməsinə icazə verib. Bu, Hindistanın xarici işlər naziri Subramanyam Cayşankar və İranın XİN rəhbəri Abbas Araqçi arasında danışıqlardan sonra baş verib. NDTV-nin məlumatına görə, ən azı iki Hindistan tankeri - "Pushpak" və "Parimal" artıq boğazdan keçib.

***P.İSMAYILOV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Ramazan ayı 23-cü günün duası

**"Allahumməğsilni fihi minəz-zunub. Və təhhirni fihi minəl-uyub. Vəmtəhin qəlbi fihi bitəqval-qulub. Ya muqilə əsəratil-muznibin".**

**Tərcüməsi:**

**"İlahi, bu gün mənim günahlarımı yuyub, məni eyblərdən təmizlə! Bu gün qəlbimi təqva ilə xalis et! Ey günahkarların xətasına göz yuman Allah!"**

# Cəhaləti sancan qələm!

*Yeganə BAYRAMOVA*

20-ci əsrdə Azərbaycan ictimai-siyasi mühitində yaranmış inqilabi ab-hava mətbuatın inkişafına böyük təsir göstərirdi. Savadlı, təhsilli, eyni zamanda millətsevər ziyalılarımız yaranmış vəziyyəti düzgün qiymətləndirirdilər. Onlar yeni qəzet və jurnalların fəaliyyətinə icazə almaq məqsədilə çarizmin müvafiq idarələrinə daha çox müraciətlər edirdilər. Nəticədə "Həyat", "İrşad", "Füyuzat" və başqa mətbu orqanların fəaliyyətinə nail oldular.

O zamanlar Azərbaycan mətbuatı üçün daha bir əlamətdar hadisə "Zənbur" jurnalının nəşrə başlaması idi. "Zənbur" ideya-bədii xəttinə, satirik gülüşün xarakterinə, formasına, bədii tərtibatına görə "Molla Nəsrəddin"ə yaxın idi, onun ənənələrini, üslubunu davam etdirirdi.

Yeri gəlmişkən, bu gün "Zənbur" jurnalının ilk sayının nəşr olunmasından 117 il ötür. Səhifələrində müxtəlif mövzulu bədii, publisist yazılar, felyetonlar, xəbərlər, karikaturalar dərc edilirdi. "Zənbur"un dili sadə və oxunaqlı idi. 8 səhifəlik jurnalın 4 səhifəsində şəkillərə, 4 səhifəsində isə yazılara yer verilirdi. Jurnalda rəngli karikaturalara yanaşı, fotoşəkillər də dərc edilirdi.

1909-cu ildə 42, 1910-cu ildə isə 28 sayı işıq üzü görən "Zənbur"un naşiri doktor Əbdülxaliq Axundov idi. Jurnalın 1-21-ci saylarının redaktoru Rza bəy Səlimxanov, 1909-cu il 22-42-ci saylarının redaktoru Əzim Əzimzadə, 1910-cu il 1-27-ci saylarının redakoru isə Murtuza bəy Pələvəndov oldu. Rəssamı Əzim Əzimzadə və Beno (Benedikt Rafailoviç Telinqator) idi.

Jurnalın ilk nömrəsindəki "Aydınlıq" başlıqlı məqaləsində "Zənbur" hansı məramnamə ilə başlamışdı, onun nəşrində məqsəd nə idi?" sualına belə cavab verilir:

"Ağalar! Gözünüz aydın olsun, bizim şəhərə Zənbur da gəldi. Bakıda insandan başqa hər cürə heyvan istəsən tapılardı. Amma bir Zənbur yox idi. Bu




axır zamanda o da təşrif gətirdi...

Bu vaxtadək Bakıya Zənbur gəlmədiyini və heyvanların arısız qalmaqlarını çox adamlar bizim vilayət üçün bir xoşbəxtlik hesab edirlər, çünki tamamən Bakı heyvanları dinc və fərağət qalıb, axırda bikarlıqdan adam oğurluğuna baş aparırdılar. İndi bu arının gəlməyi, ola bilsin ki, heyvanları bir az ürküsün, amma bizim qanacağımıza görə bu Zənbur çox sancan olmasın. Çünki Bakıya gələn heyvanlar şirniyə yığılan milçəklər kimi çox şirindil və xoşrəftar olurlar. Ümid var ki, bu təzə gələn Zənbur da bu təzə sifətlər sahibi olsun. Hər tövr olmuş olsa, gərək bir az ehtiyatlı olmaq, çünki arıların təbii xasiyyəti sancmaqdır və bu xasiyyəti ondan almaq müşküldür. Əlalxüsus ki, qabağında şirin təmalar ola. Qorxuram ki, şəhər əhli acıqdan bu arını da gözümçıxdıya salalar və Zənbur özü üçün yuva qurmamış onu gözə gətirələr. Hər necə olmuş olsa, gərək onunla rəftar olunsun və qarelərdən kəmali-icz ilə təvəqqə edirik ki, qonağa hörmət etsinlər və onun səhvin və xətasın ona nöqsan tutmasınlar və bu duaları bizim ilə təkrar etsinlər: Allah Zənburun nəştərin sındırsın və özünü də tezbazar eləsin!".

**Bizim şəhərə "Zənbur" gəlmişdi...**

1910-cu ilin oktyabrınadək fəaliyyət göstərən "Zənbur" dövrün məşhur realist şair və ədiblərini öz ətrafında topladı. Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Abbas Səhhət, Əliabbas Müznib, Bayraməli Abbaszadə (Hammal) və başqa sənətkarların satirik şeir və felyetonları "Zənbur"u daha da oxunaqlı edirdi. Jurnal "Molla Nəsrəddin" kimi cəhaləti, mövhumatı, təhsilin inkişaf etməməsini tənqid edirdi. "Zənbur"da yaxın ölkələrin həyatı ilə, xüsusən, İran və Türkiyədə gedən milli-azadlıq hərəkatına dair karikaturalar dərc edilirdi.

# Mart nə üçün "dərd ayı"dır?

*Yeganə BAYRAMOVA*

Adətən "Mart gəldi, dərd gəldi", "Mart çıxdı, dərd çıxdı" deyimini bayramlarla bol olan mart ayı haqqında eşidirik. Əslində isə mart bayramlar ayıdır. Lakin düşünürük ki, mart tez çıxsa, işlərimiz yoluna düşəcək. Mart ayı Azərbaycanda həm təbiətin oyanışını, həm də insanların sağlamlığında müəyyən dəyişiklikləri bildirir. Məlumdur ki, marta "Boz ay" da deyirlər.

Bəzi folklorşünaslar bildirir ki, "Mart gəldi, dərd gəldi, mart çıxdı, dərd çıxdı" deyiminin yaranmasına səbəb mart ayında hava şəraitinin qeyri-sabit keçməsi ilə bağlıdır. Məlum olduğu kimi, martda hava tez-tez küləkli, dəyişkən, buludlu, tutqun olur. Bu da kənd təsərrüfatı ilə məşğul olan insanlar üçün sıxıntı yaradır. Beləliklə, qədim zamanlarda ölkəmizdə mart ayına problem, dərd kimi baxıblar, onun tezliklə çıxmasını gözləyiblər. Martdan sonra isə təbiət tamamilə oyanmağa, yaşıllaşmağa başlayır. İnsanların da həyatları rahatlaşmağa doğru getdiyindən "Mart çıxdı, dərd çıxdı" deyirlər.

Martın gəlişi ilə allergiyadan əziyyət çəkənlərin narahatlığı da başlayır. Çox vaxt allergiya burun axması, çoxlu asqırma və göz qaşınması kimi əlamətlərlə müşahidə edildiyinə görə qripə bənzəyir. Yazın gəlişi ilə mövsümi allergiya da baş qaldırır.

Allergiya fərqli xüsusiyyətə malikdir. Məsələn, qida allergiyası zamanı buna səbəb olan qida məhsulu rasiondan çıxarılandan sonra şikayətlər aradan qalxır. Ağacların çiçəkləməsi, təbiətdə gedən tozlanma prosesinə qarşı allergiyası olanların isə daha çətin olur. Bəzən allergiya ilə qripi dəyişik salanlar da olur.

**Qrip və yaz allergiyasının fərqi...**

İnfeksionist Vüqar Cavadzadə "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, fevral ayının ortalarından artıq çiçəklərdə tozlanma prossesi başlayır. Tozlanmada iştirak edən tozcuqlar mikroskopik ölçülü olur və gözlə görünmür, kilometrlərlə ətrafa yayılır.

İnfeksionistin sözlərinə görə, qrip və yaz allergiyası arasındakı müəyyən fərqlər var. Belə ki, qrip zamanı bədən ağrıları daha ön planda olduğu halda, allergiyada belə olmur:

"Allergiyada qriplə müqayisədə asqırmalar daha tez-tez olur. Allergiya ilə əlaqədar xəstəliklərdə qızdırma halları da o qədər müşahidə edilmir. Bədəndə ağrıların və qızdırma hallarının ön planda olması daha çox virus mənşəli, yaxud digər respirator xəstəliklə əlaqədardır".

**Tam müalicəsi yoxdur**

Həkim qeyd edib ki, allergiyanın tam müalicəsi yoxdur: "Başqa bir hal xəstəliyin bəzən uzun müddət davam etməsidir. Buna səbəb allergiyaya meyilli olanların özləri istəməsə də, onu yaradan səbəblərlə daim təmasda olmasıdır. Bəzi insanların bu tozcuqlara, polemlərə qarşı həssaslığı və allergiyası var. Allergiyası olan insanlarda da yaz aylarında burun tutqunluğu, nəfəsalmanın çətinləşməsi, burunda qaşınma, qripə bənzər hallar olur. Eyni zamanda burundan selik ifrazı, gözlərdə qum qalma hissi, qaşınma, sulanma, qulaqda, damaqda qaşınmalar kimi şikayətlər olur. Bəzi pasiyentlərdə bronxial-astma, polen allergiyası xəstəliyi var, bu isə yaz mövsümündə astmanın kəskinləşməsinə səbəb olur. Ən çox müraciət edilən şikayətlər mövsüm allergiyasıdır və xroniki xəstəlikdir. Bu mövsüm pasiyenti müalicə etsək də, bu prosesin gələcəkdə təkrarlanma ehtimalı böyükdür. Davamlı müalicə alan pasiyentlərdə sakitləşmə olur və bir necə il xəstələri narahat etmir. Lakin bu xəstələr daim özlərinə nəzarət etməlidirlər. Ümumiyyətlə, allergiya əlamətləri soyuqdəymə, qrip kimi başa düşülür. İnsanlar müraciət edirlər ki, iki aydır qripəm, immunitetim aşağı düşüb. Müayinə etdikdə isə məlum olur ki, bu, yaz allergiyasıdır. Qeyd edim ki, qrip viral infeksiyadır və bir həftə -10 gün ərzində yekunlaşır".




# "Nar" peşəkar kadr hazırlığı istiqamətində təlimlərə başladı

Mobil operator "Nar" ölkənin yerli əmək bazarı üçün peşəkar kadrların hazırlanması istiqamətində təlimlərə başladı. "Nar"ın tərəfdaşlıq etdiyi universitetlərin tələbələri üçün keçirilən təlimlər seriyası, ilk olaraq, Azərbaycan Texniki Universitetində (AzTU) start götürdü.




"Nar"ın İnsan qaynaqları departamentinin peşəkar heyəti tərəfindən hazırlanan təlim proqramı texniki ixtisaslar üzrə təhsil alan tələbələrə rabitə sahəsi üzrə karyera perspektivləri, işə qəbul prosesi, real iş həyatında tələb olunan bacarıqlar barədə bilikləri əhatə edir. Semestr ərzində iki mərhələdə keçiriləcək təlim ümumilikdə 40 iştirakçını əhatə edir.

Təlimdən öncə "Nar"ın baş icraçı direktoru Özgür Genc tələbələrlə görüşdü. Özgür Genc müasir dünyada texniki ixtisasların aparıcı rolunu vurğulayaraq hazırda bu sahənin peşəkarlarına hər zaman olduğundan daha artıq ehtiyac olduğunu bildirdi.

Qeyd edək ki, "Nar" Azərbaycanın rabitə bazarına peşəkar kadrların hazırlanması məqsədilə, paytaxt və regionlarda fəaliyyət göstərən universitetlərlə əməkdaşlıq edir və bu çərçivədə universitetin tələbələrinin bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində davamlı layihələr həyata keçirir.

Mobil operatorun layihələri haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 7 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.

# Azercell-in dəstəyi ilə "FutureFem 2.0" layihəsinə start verilib

*Proqram 100 tələbə qızın sahibkarlıq və liderlik bacarıqlarının inkişafına töhfə verəcək*

Azercell-in dəstəyi ilə həyata keçirilən "FutureFem 2.0 - Qadınların Sahibkarlıq və İnnovasiya Potensialının Gücləndirilməsi" layihəsinin açılış mərasimi keçirilib. Layihə Azercell-in qadınların sosial və iqtisadi inkişafının dəstəklənməsinə yönəlmiş "Həyatı daha dolğun edirik:qadınlara dəstək proqramı" çərçivəsində qəbul edilən təşəbbüslərdən biridir və "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi tərəfindən icra olunur. "FutureFem 2.0" layihəsi gənc qadınların sahibkarlıq, innovasiya və texnologiya sahələrində bilik və bacarıqlarının inkişaf etdirilməsini hədəfləyir.



Qeyd edək ki, "FutureFem 2.0" layihəsi mart-may ayları ərzində həyata keçiriləcək üç aylıq inkişaf proqramıdır və 100 tələbə qızı əhatə edir. Layihə ümumilikdə 6 əsas mərhələdən və 8 təlim modulundan ibarətdir. Proqram çərçivəsində iştirakçılar sahibkarlığın əsasları, maliyyə savadlılığı, marketinq, innovativ düşüncə, rəqəmsal transformasiya, liderlik və effektiv kommunikasiya istiqamətlərində praktiki bilik və bacarıqlar əldə edəcəklər. Təlimlər müvafiq sahələr üzrə ekspertlərin iştirakı ilə keçiriləcək. İştirakçılar 33, 33 və 34 nəfərdən ibarət üç qrupa bölünərək rotasiya prinsipi əsasında hər mövzu üzrə iki həftəlik təlim modullarına iştirak edəcəklər.

Layihənin sonunda keçiriləcək "FutureFem Challenge" mərhələsində iştirakçılar innovasiya və sahibkarlıq yönümlü ideyalarını ekspertlər və münsiflər heyəti qarşısında təqdim edəcəklər. Müsabiqədə təqdim olunan ideyalar BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun qiymətləndiriləcək və ən uğurlu komandalar əlavə mentorluq və inkişaf imkanları qazanacaqlar.

Layihə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin təşkilatçılığı ilə reallaşdırılır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5025
Sifariş: 354
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova